№ 05-06 (813) 31 mart 2025-ci il • Qəzet 1991-ci ildən nəşr olunur • www.health.gov.az; • www.tibbqazeti.az

# TİBB qəzeti

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi



«Tibbi sığorta haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 2



Prezident İlham Əliyev Ümumdünya Səhiyyə Təşkilatının Baş direktorunu qəbul edib 4



Milli Məclis səhiyyə ilə əlaqəli bəzi qanunlara dəyişikliklər edib 5

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa Müalicə Sağlamlıq Mərkəzində tikinti işləri ilə tanış olublar



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 27-də Şuşada tarixi Çöl Qala məscidinin və bulağının bərpadan sonra açılışında iştirak edib, iaşə obyektlərində yaradılan şəraitlə, Qarabağ küçəsində, Şuşa Müalicə Sağlamlıq Mərkəzində və Yeni Şuşa məscidində aparılan tikinti işləri ilə tanış olublar.

2




## Bakıda XII Qlobal Bakı Forumu keçirilib

Bakıda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə «Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi» mövzusunda XII Qlobal Bakı Forumu baş tutub.

Səh. 3

## Birinci vitse-prezident Mehriban Əliyeva Gəncə Perinatal Mərkəzində olub



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Gəncəyə səfər çərçivəsində Gəncə Şəhər Birləşmiş Xəstəxanasının Perinatal Mərkəzində olublar.

Səh. 4

ARASH
MEDICAL COMPANY
Tel: (994 12) 530 15 15
(994 50) 255 15 15
(994 77) 277 22 77
Faks: (994 12) 530 44 44



www.arash.az

## Azərbaycanda səhiyyə xidmətlərinin keyfiyyətinin artırılması məqsədilə ayrılan vəsaitin məbləği artıb



Hesabat ilində səhiyyə xidmətlərinin keyfiyyətinin artırılması və əlçatanlığın təmin olunması məqsədilə əhalinin icbari tibbi sığortalanması və bu sahədə bir sıra dövlət proqramlarının icrası üzrə büdcədən 1 milyard 368 milyon manat vəsait ayrılıb.

4

*Aforizm*

*Tək bir müəllimi - təbiəti dinlə.*

*Rembrandt*

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa Müalicə Sağlamlıq Mərkəzində tikinti işləri ilə tanış olublar



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 27-də Şuşada tarixi Çöl Qala məscidinin və bulağının bərpadan sonra açılışında iştirak edib, iaşə obyektlərində yaradılan şəraitlə, Qarabağ küçəsində, Şuşa Müalicə Sağlamlıq Mərkəzində və Yeni Şuşa məscidində aparılan tikinti işləri ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısı və birinci xanım tikintisi davam edən Şuşa Müalicə Sağlamlıq Mərkəzinə gəliblər, aparılan tikinti işləri ilə tanış olublar.



Təməli 2021-ci il noyabrın 7-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulan bu tibb ocağı 90 çarpayılıqdır və 6 korpusdan ibarətdir.

Stasionar xidmət sahəsində terapiya, pediatriya, cərrahiyyə, hemodializ və digər şöbələr fəaliyyət göstərəcək. Ambulator xidmət sahəsində isə konsultativ poliklinika, uşaq poliklinikası, şüa-diaqnostika, funksional diaqnostika, fizioterapiya və tibbi bərpa şöbələri, həmçinin klinik diaqnostik laboratoriya yaradılacaq. Mərkəzin Təcili Tibbi Yardım Stansiyası müasir standartlara cavab verən avadanlıqla təchiz olunacaq.

Şuşa Müalicə Sağlamlıq Mərkəzinin ərazisində, eyni zamanda, Gigiyena və Epidemiologiya Mərkəzi, yoluxucu xəstəliklər və hemodializ korpusları inşa olunub.

Qeyd edək ki, işğaldan azad olunan ərazilərdə Azərbaycan dövləti tərəfindən digər sahələrlə yanaşı, tibb xidmətlərinin müasir səviyyədə təşkili üçün də genişmiqyaslı işlər həyata keçirilir. Şuşada bu cür tibb ocağının yaradılması bunun əyani göstəricisidir. Şuşa Müalicə Sağlamlıq Mərkəzi şəhərdə yaşayacaq əhalinin tibbi təminatı və sağlamlığının qorunması istiqamətində icra olunan sosial infrastruktur layihələrindən biridir.






## «Tibbi sığorta haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikasının Qanunu*

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** «Tibbi sığorta haqqında» Azərbaycan Respublikasının Qanununda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 15-16.1.1-ci maddəyə birinci halda «daxil olmayan» sözlərindən sonra «və (və ya) xidmətlər zərfinin şərtlərinə uyğun olmayan» sözləri əlavə edilsin;

1.2. 15-17.2.3-cü maddəyə «məbləği» sözündən sonra «və onun tətbiq olunduğu hallar» sözləri əlavə edilsin;

1.3. 15-18.3-cü maddəyə «məbləği» sözündən sonra «və onun tətbiq olunduğu hallar (bu Qanunun 15-28.3-cü maddəsində göstərilən hal istisna olmaqla)» sözləri əlavə edilsin;

1.4. 15-28-ci maddə üzrə:

1.4.1. 15-28.1-ci maddədə «ambulator-poliklinik, laborator, funksional-diaqnostik» sözləri «ixtisaslaşdırılmış» sözü ilə əvəz edilsin və həmin maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

«İlkin tibbi-sanitariya yardımı göstərən dövlət tibb müəssisəsinin göndəriş vermək hüququ olan hallar xidmətlər zərfi ilə müəyyən edilir.»;

1.4.2. 15-28.3-cü maddədə «ambulator-poliklinik, laborator, funksional-diaqnostik» sözləri «ixtisaslaşdırılmış həkim müayinəsi ilə bağlı» sözləri ilə əvəz edilsin;

1.4.3. 15-28.4-cü maddə ləğv edilsin;

1.5. 16-4-cü maddə üzrə:

1.5.1. 16-4.4-1-ci maddədə «və 15-28.4-cü maddələri 2025-ci» sözləri «maddəsi 2026-cı» sözləri ilə əvəz edilsin;

1.5.2. 16-4.5-ci maddədə «2025-ci» sözləri «2026-cı» sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Bu Qanun 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 28 fevral 2025-ci il*

# Bakıda XII Qlobal Bakı Forumu keçirilib

## Prezident İlham Əliyev Forumun açılış mərasimində çıxış edib

**Bakıda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə «Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi» mövzusunda XII Qlobal Bakı Forumu baş tutub.**




AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumun açılış mərasimində iştirak edib və giriş nitqi söyləyib.

Dövlət başçısı qonaqları salamlayıb, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin bütün üzvlərinə Mərkəzin dünya miqyaslı fəaliyyətinə, onun transformasiyasına verdikləri töhfəyə, COP29 tədbirində fəal iştiraka görə təşəkkür edib, həmin tədbirin nəticələrindən danışıb.

Ermənistan - Azərbaycan prosesinə toxunan Prezident İlham Əliyev bidirib ki, biz işğal illərini, Ermənistanın işğalı və təcavüzü nəticəsində Azərbaycan xalqının çəkdiyi əzab-əziyyətləri yaddan çıxara bilmərik və çıxarmayacağıq. Bununla belə, biz gələcəyə nəzər salmalı, Cənubi Qafqazda sülhə nail olmalıyıq.




Çıxışının sonunda dövlət başçısı Forumun maraqlı olacağını deyib, ona uğurlar arzulayıb.

Albaniya Respublikasının Prezidenti **Bayram Beqay** çıxışında deyib ki, COVID-19 pandemiyasının idarə edilməsi təcrübəsi onu göstərdi ki, ən səmərəli həllər vahid reaksiya mexanizmindən irəli gəlir, elm və texnologiyaya uzunmüddətli investisiyalar yatırılmalıdır. Texnoloji inkişafa dəstək, süni zəkanın inkişafı fərdlərə, icmalara və xalqlara yeni mərhələyə keçməyə imkan yaradacaq.

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri **Jelka Tsviyanoviç** dünya düzənində hazırkı problemlərdən, ölkəsinin bu şəraitdə konstitusion və siyasi böhrandan çıxış üçün etdiyi cəhdlərdən danışıb.

Şimali Makedoniya Prezidenti **Qordana Silyanovska-Davkova** ölkələrimiz arasında bənzərlikdən, forumun əhəmiyyətindən çöz açıb.

Latviyanın sabiq Prezidenti **Vayra-Vike Freyberqa** XII Qlobal Bakı Forumunun fikir müxtəlifliyini təmsil edən insanları neytral və mehriban mühitdə bir araya gətirdiyini bildirib.

Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru **Tedros Adhanom Gebreyesus** çıxışında COP29 kimi mühüm beynəlxalq tədbirə ev sahibliyi etdiyinə görə Azərbaycana təşəkkürünü bildirərək deyib: «Mən buraya bir neçə ay öncə COP29 üçün gəlmişdim və qısa müddət sonra bu cür yaxşı təşkil olunmuş tədbirə ev sahibliyi etdiyinə görə Prezident Əliyevi təbrik edirəm. Lakin Zati-aliləri, ən vacibi isə mən əldə edilmiş əhəmiyyətli nəticələrə görə Sizi təbrik edirəm. Hamımız bilirik ki, danışıqlar asan deyildi, lakin nəticədə iqlim maliyyəsi, qabaqlayıcı və uyğunlaşma tədbirləri üçün mühüm öhdəliklər müəyyən olundu. Qısa desək, bu, elə çoxtərəflilikdir. Ümumi problemlərlə bağlı dövlətlər ümumi həll variantlarının tapılmasında bir araya gəldilər».

Açılış mərasimində həmçinin BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi **Migel Anxel Moratinos,** BMT-nin Ticarət və İnkişaf Konfransının Baş katibi **Rebeka Qrinspan,** BMT-nin Cenevrədəki ofisinin Baş direktoru **Tatyana Valovaya,** Beynəlxalq Enerji Agentliyinin icraçı direktoru **Fatih Birol,** Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri **İsmail Serageldin** dünya düzənini təhdid edən problemlərin müzakirəsi və həlli baxımından XII Qlobal Bakı Forumunu mühüm platforma olduğunu vurğulayıblar.

«Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi» mövzusuna həsr olunan XII Qlobal Bakı Forumunda dünyanın müxtəlif regionlarından 400-ə yaxın nüfuzlu siyasi xadim, BMT strukturlarının rəhbərləri, alimlər və ekspertlər iştirak ediblər.

Forumda «Geosiyasi dəyişmələr: Məsuliyyətli tərəfdaşlıq rəqabətə qarşı», «Çoxqütblü dünya üçün multilateralizmə yenidən baxılması», «Gələcək üçün BMT paktı: Yeni qlobal konsensusun yaradılması» mövzularında panellər təşkil olunub. Yeni texnologiyalar, gender və təhlükəsizlik, iqlim dəyişikliyinin təsiri, qlobal səhiyyə böhranları və onların həlli yolları da diqqət mərkəzində olub. Xüsusilə, «Yeni dünya üçün yeni texnologiyalar», «Gender-Təhlükəsizlik-İqlim bağlantısı» və «Qlobal səhiyyə böhranı: Hazırlıq və bərabərlikdə yeni cəbhələr» panelləri bu istiqamətdə vacib mövzuları əhatə edib.



## Prezident İlham Əliyev Ümumdünya Səhiyyə Təşkilatının Baş direktorunu qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Gebreyesusu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Tedros Gebreyesus COP29-un Azərbaycanda uğurla keçirilməsi münasibətilə təbriklərini çatdırıb və bu konfrans çərçivəsində əldə olunmuş nəticələri yüksək qiymətləndirdiklərini deyib.

Prezident İlham Əliyev COP29-a hazırlıqla bağlı vaxtın az olmasına baxmayaraq, Azərbaycan tərəfindən bu tədbirin yüksək səviyyədə keçirilməsi üçün bütün zəruri işlərin görüldüyünü qeyd edib.

Tedros Gebreyesus Azərbaycanın ÜST-yə verdiyi dəstəyə və könüllü maliyyə töhfələrinə görə təşəkkürünü bildirib, rəhbərlik etdiyi qurumun müxtəlif ölkələrdə Azərbaycanla birlikdə həyata keçirilmiş layihələrinin önəminə toxunub.

Görüşdə Azərbaycanla Ümumdünya Səhiyyə Təşkilatı arasında əməkdaşlıq məsələlərinə, həmçinin BMT strukturlarının gələcək fəaliyyətinə dair fikir mübadiləsi aparılıb.

Söhbət zamanı XII Qlobal Bakı Forumunun və onun gündəliyində duran məsələlərin əhəmiyyəti vurğulanıb.

## Birinci vitse-prezident Mehriban Əliyeva Gəncə Perinatal Mərkəzində olub

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Gəncəyə səfər çərçivəsində Gəncə Şəhər Birləşmiş Xəstəxanasının Perinatal Mərkəzində olublar.**







**AZƏRTAC bildirir ki, Gəncə şəhər Birləşmiş Xəstəxanasının direktoru İlkin İsmayılov Gəncə və ətraf regionlardan olan vətəndaşlara xidmət göstərən Perinatal Mərkəz barədə məlumat verib.**

Qeyd olunub ki, Perinatal Mərkəz ana olmağa hazırlaşan və zahı qadınlara, dünyaya yeni göz açan körpələrə yüksəkixtisaslı diaqnostik, konsultativ və müalicə yardımı göstərən tibb müəssisəsidir.

Tibb müəssisəsindəki şəraitlə tanışlıq zamanı Perinatal Mərkəzə Heydər Əliyev Fondu tərəfindən küvezlər və ultrasəs müayinə aparatı hədiyyə edilib.

Yeni doğulmuş körpələri ziyarət zamanı analara Fondun hədiyyələri də təqdim olunub.

Qeyd edək ki, səhiyyə sahəsi Heydər Əliyev Fondunun fəaliyyətində prioritet istiqamətlərdən biridir. Fondun «Diabetli uşaqlara ən yüksək qayğı», «Talassemiyasız həyat naminə», «Tibb müəssisələrinin yenidən qurulması və inşası» kimi layihələri, bir çox xeyriyyə aksiyaları səhiyyə sahəsinə mühüm dəstəkdir. Bu layihələr çərçivəsində paytaxt Bakı ilə yanaşı, bölgələrdə də müasir səhiyyə ocaqları inşa edilir, ən son texnologiyalı tibbi avadanlıqla təchiz olunur.

## Azərbaycanda səhiyyə xidmətlərinin keyfiyyətinin artırılması məqsədilə ayrılan vəsaitin məbləği artıb




**Hesabat ilində səhiyyə xidmətlərinin keyfiyyətinin artırılması və əlçatanlığın təmin olunması məqsədilə əhalinin icbari tibbi sığortalanması və bu sahədə bir sıra dövlət proqramlarının icrası üzrə büdcədən 1 milyard 368 milyon manat vəsait ayrılıb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, bunu Baş nazir Əli Əsədov parlamentin iclasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyəti haqqında hesabatının təqdimatı zamanı deyib.

Beləliklə, səhiyyə sahəsinə ayrılan vəsaitin artımı 8,2 faiz olub.

Baş nazir bildirib ki, hökumət tərəfindən əhalinin sağlamlığının qorunması məqsədilə qarşıdakı dövrdə tibbi xidmətlər zərfinin genişləndirilməsi nəzərdən keçirilir.

İclasda Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyəti haqqında hesabatı ətrafında müzakirələr aparılıb. Deputatlar insanların rifahının daha da yaxşılaşdırılmasına yönəlmiş sosial layihələrin həyata keçirilməsi ilə bağlı lazımi vəsaitin ayrılmasını müsbət dəyərləndiriblər. Səhiyyə sahəsinin inkişafı istiqamətində əhəmiyyətli işlərin görüldüyü vurğulanıb.

## ÜST-nin direktoru: ABŞ-nin Ümumdünya Səhiyyə Təşkilatından çıxması itkidir

**«Təcrid olmaq bir seçim deyil. Beynəlxalq əməkdaşlıq vacibdir. Yeganə imkan birgə mübarizədir».**

AZƏRTAC xəbər verir ki, bu sözləri XII Qlobal Bakı Forumunun «Çoxqütblü dünya üçün multilateralizmə yenidən baxılması» adlı panel iclasında Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Gebreyesus deyib.

O bildirib ki, ABŞ-nin ÜST-dən çıxması itkidir: «Lakin biz yeganə təşkilat deyilik. ABŞ inkişafa dəstəyin 30 faizini ödəyir. Odur ki, bu maliyyənin ödənilməməsi səhiyyəyə təsir göstərəcək. Məsələn, Qazanılmış İmmun Çatışmazlığı Sindromuna (QİÇS) qarşı mübarizəyə və digər sahələrə maliyyə yardımının göstərilməməsi qabaqcıl tədbirlərin görülməməsinə səbəb olacaq. Anbarlarda kifayət qədər dərmanların olmaması, çatdırılmanın gecikməsi müalicəni çətinləşdirir. Burada Afrika qitəsini xüsusilə qeyd etmək lazımdır. Yeddi yüzdən çox laboratoriyanın fəaliyyətini dayandırmalı olacağıq».

«ABŞ-dən gələn resurslar ölkələrdə fövqəladə halların idarə edilməsinə kömək edir. Maliyyə dayansa, bu, sözsüz ki, çox böyük problemlərə səbəb olacaq. Fövqəladə hallara hazırlıq zəifləyərsə, bir çox xəstəliklərə vaxtında müdaxilə etmək mümkün olmayacaq. ABŞ islahatlar istəyirsə, biz bütün islahatlara açığıq", - deyə o əlavə edib.

# Səhiyyə Nazirliyində Britaniyalı görkəmli beyin fizioloqu ilə görüş olub



**Britaniya Lordlar Palatasının üzvü, Böyük Britaniya Kral İnstitutunun sabiq direktoru, beyin fiziologiyası sahəsi üzrə ixtisaslaşmış məşhur ingilis alimi, baronessa Syuzan Qrinfildin Azərbaycana işgüzar səfəri çərçivəsində Səhiyyə Nazirliyində görüş keçirilib.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, qonaqla görüşdə səhiyyə naziri Teymur Musayev Azərbaycan - Böyük Britaniya münasibətlərinin dinamik inkişaf etdiyini vurğulayıb.

Teymur Musayev səhiyyə sahəsində də əməkdaşlığın inkişafı üçün geniş potensialın olduğunu diqqətə çatdırıb. Onun sözlərinə görə, ölkələrimizin ali tibb təhsili mütəxəssislərinin davamlı peşə təhsili sahəsində müasir metodiki və elmi-praktik təcrübə mübadiləsi üçün bütün imkanlar mövcuddur: «İnnovativ avadanlıqların klinik praktikaya tətbiqi və tibb işçilərinin yüksək peşə hazırlığı ilə seçilən Böyük Britaniya səhiyyə sistemi (National Health Service - NHS) dünyada ən effektiv təşkil edilən səhiyyə sistemlərindən biridir. Bundan əlavə, Böyük Britaniyanın tibb universitetləri təhsilin keyfiyyəti və yüksəkixtisaslı mütəxəssislərin hazırlanması ilə məşhurdur».

«Azərbaycan Tibb Universitetinin, habelə ölkəmizin aparıcı tibb mərkəzlərinin «Royal Institution of Great Britain», «Royal Liverpool University Hospital», «University College London Hospital» və Böyük Britaniyanın dünya şöhrətli digər universitetləri ilə əlaqələri ölkələrimiz arasında səhiyyə sahəsində əməkdaşlığın inkişafında vacib rol oynayır», - deyə Azərbaycanın səhiyyə naziri bildirib.

Səmimi qəbula və yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən Syuzan Qrinfild Böyük Britaniyanın Azərbaycanla ikitərəfli əlaqələrin möhkəmləndirilməsinə böyük önəm verdiyini vurğulayıb. Beynəlxalq tədbirlərdə iştirak etmək üçün dəfələrlə ölkəmizə səfər etdiyini deyən baronessa Azərbaycanın paytaxtında təşkil olunan qlobal forumların hər zaman yüksək səviyyədə keçirildiyini diqqətə çatdırıb.

Ölkələrimiz arasında səhiyyə sahəsində əməkdaşlığın genişləndirilməsi məsələsinə toxunan Syuzan Qrinfild son illər Azərbaycanda səhiyyə sisteminin gücləndirilməsi məqsədilə islahatların aparılması istiqamətində mühüm işlərin görüldüyünü qeyd edib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Milli Məclis səhiyyə ilə əlaqəli bəzi qanunlara dəyişikliklər edib

**Mart ayında Milli Məclisin yaz sessiyasında bir neçə plenar iclası keçirilib.**

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, ilk iclasda Ombudsman Səbinə Əliyeva 2024-cü ildə ölkədə insan hüquqlarının qorunması haqqında məruzəni təqdim edib.

İnsan hüquqları üzrə müvəkkil 2024-cü ilin ölkəmiz üçün bir sıra mühüm ictimai-siyasi hadisələr və qlobal əhəmiyyətli tədbirlərlə yadda qaldığını söyləyib. O, məruzədə əhalinin sağlamlığı məsələlərinə də toxunub.

Belə ki, sağlamlığın qorunması hüququnun səmərəli təmin edilməsi istiqamətində əhəmiyyətli islahatların aparılmasına baxmayaraq, hələ də bu sahədə müəyyən çətinliklərin olduğu qeyd edilib. İcbari tibbi sığortanın təminat verdiyi tibbi xidmətlər zərfinin genişləndirilməsinin, ölkəyə idxal edilən dərman vasitələrinin keyfiyyətinə nəzarətin gücləndirilməsinin, onkoloji xəstəliklərin müalicəsində istifadə olunan dərman preparatlarının spektrinin genişləndirilməsinin vacibliyi vurğulanıb. Səhiyyə müəssisələri tərəfindən əlilliyin qiymətləndirilməsi məqsədilə müvafiq göndərişlərin düzgün rəsmiləşdirilməsi və süründürməçilik hallarının aradan qaldırılması üçün tibb işçilərinin peşəkarlığının artırılmasının, sənədləşmə prosesinin sadələşdirilməsinin zəruriliyindən söhbət açılıb.

Məruzədə qeyd olunub ki, həssas əhali qrupuna aid edilən əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi, onların cəmiyyətin tamhüquqlu üzvləri kimi inteqrasiyasının təmin edilməsi üçün tibb, təhsil, sosial xidmət və digər müəssisələrdə, həmçinin nəqliyyat sistemində və yollarda əlilliyi olan şəxslərin həyat fəaliyyəti üçün əlverişli şəraitin yaradılmasında mövcud çətinliklərin aradan qaldırılması zəruridir.

Diqqətə çatdırılıb ki, Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində saxlanılan şəxslərlə rəftar məsələləri, saxlanma şəraiti, habelə müvafiq sənədləşmənin araşdırılması məqsədilə aidiyyəti dövlət qurumlarının müəssisələrinə başçəkmələr zamanı həmin şəxslərin hüquqlarının təmini vəziyyəti öyrənilib, müraciətləri araşdırılıb. İllik məruzədə həbs yerlərində saxlanılan şəxslərin və məhkumların sağlamlıq hüquqlarının daha effektiv təmini üçün tibbi məlumatların elektron qeydiyyatının aparılması, müəssisələrdə tibbi xidmətlərin sosial xidmətlərə daha sıx inteqrasiyası üzrə zəruri tədbirlərin görülməsi təklif edilib.

Müzakirələrdə parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc həbs yerlərində saxlanılan şəxslərin və məhkumların hüquqlarının müdafiəsi, ağır xəstə məhkumların cəzadan azad olunmalarına dair məhdudiyyətlərin aradan qaldırılması, təqdimatların göndərilməsindəki problemlərin həlli zəruriliyindən danışıb. Komitə sədri sənəddə hərbi qulluqçuların hüquqlarının müdafiəsi ilə bağlı çağırışçıların sağlamlıq vəziyyətinin müəyyən edilməsi və bir sıra digər məsələlər barədə fikirlərini açıqlayıb.

Müzakirələrdən sonra Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2024-cü ildə ölkədə insan hüquqlarının qorunması haqqında illik məruzəsinin nəzərə alınması barədə qərar layihəsi qəbul edilib.

Birinci oxunuşda müzakirəyə çıxarılan qanun layihələrinə baxılması zamanı Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Mülki Prosessual Məcəlləsində, Ailə Məcəlləsində, Cinayət Məcəlləsində, Vergi Məcəlləsində, Cəzaların İcrası Məcəlləsində, «Sosial sığorta haqqında», «Əhalinin sağlamlığının qorunması haqqında», «Uşaq hüquqları haqqında», «Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında», «Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında», «Dövlət rüsumu haqqında», «İcra haqqında», «Ünvanlı dövlət sosial yardımı haqqında», «Sosial müavinətlər haqqında», «Əmək pensiyaları haqqında», «Əlilliyi olan şəxslərin hüquqları haqqında» Konvensiyaya qoşulmaq barəsində», «Əlilliyi olan şəxslərin hüquqları haqqında» və «Məşğulluq haqqında» Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib.



Bildirilib ki, layihə «Əlilliyi olan şəxslərin hüquqları haqqında» Qanunda dəyişiklik edilməsi barədə» 2021-ci il 22 iyun tarixli 346-VIQD nömrəli Qanunun icrası ilə əlaqədar hazırlanıb. Dəyişikliklərə əsasən, bir sıra qanunlarda «18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər» sözləri «əlilliyi olan uşaqlar» sözləri ilə əvəz edilir. Qanun layihəsi Birləşmiş Millətlər Təşkilatının «Əlilliyi olan şəxslərin hüquqları haqqında» 2006-cı il tarixli Konvensiyasının tələbləri çərçivəsində istifadə edilən terminlərin uyğunlaşdırılmasını kompleks şəkildə nəzərə almaqla, qanunvericilik sistemində əlilliyi olan uşaqlara münasibətdə terminologiya vahidliyi təmin edəcək.

Sonra Hüquq siyasəti və dövlət quruculuğu, Ailə, qadın və uşaq məsələləri, İqtisadi siyasət, sənaye və sahibkarlıq, Səhiyyə və İnsan hüquqları komitələrinin sədrləri məsələ barədə bu komitələrdə müsbət rəy verildiyini diqqətə çatdırıblar.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Parlamentin martda keçirilən digər bir iclasında İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında», «Üzümçülük və şərabçılıq haqqında», «Dərman vasitələri haqqında» və «Reklam haqqında» Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. O, rəqəmsal mühitdə reklam fəaliyyətinin tənzimlənməsinə zərurət yarandığını və sənəddə nəzərdə tutulan dəyişikliklərin reklam fəaliyyətindəki yeniliklərlə bağlı olduğunu söyləyib.

Diqqətə çatdırılıb ki, layihədə «reklam daşıyıcısı olan rəqəmsal platforma reklamları» (reklamın yayımlanması üçün istifadə olunan internet informasiya ehtiyatı, informasiya-telekommunikasiya şəbəkəsi və ya onların mobil tətbiqləri) «Reklam haqqında» Qanunun tənzimləmə dairəsinə daxil edilir. Bununla yanaşı, yeni «rəqəmsal platforma təsirçisi» anlayışı gətirilir və bununla reklam subyekti üçün müəyyən edilmiş hüquqların, vəzifələrin və məsuliyyətin rəqəmsal platforma təsirçisinə də şamil edilməsi təmin edilir. Rəqəmsal platforma təsirçisi tərəfindən həyata keçirilən reklam yayımına dair bir sıra tələblər və qadağalar da müəyyən edilir. Sənəddə həmçinin təklif olunur ki, reklam daşıyıcısının xüsusiyyətlərinə görə müvafiq lisenziyanın və sertifikatın olması barədə məlumat verilməli və reklam istehlakçısının müvafiq məlumatla tanış olması üçün şərait yaradılmalıdır.

Qeyd olunub ki, qanun layihəsi istehlakçıların hüquqlarının qorunmasına, reklam fəaliyyətinə dövlət nəzarətinin gücləndirilməsinə yönəlib.

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev, Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov qanun layihəsinin bu komitələr tərəfindən dəstəkləndiyini bildiriblər.

Məsələ ətrafında müzakirələrdən sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

# Süni intellekt və rəqəmsal həllər tibbi xidmətlərə çıxışı genişləndirə bilər

**Prezident İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə Bakıda keçirilən «Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi» mövzusunda XII Qlobal Bakı Forumunda panel iclaslar çərçivəsində «Qlobal səhiyyə böhran dövründə: Hazırlıq və bərabərlikdə yeni sərhədlər» mövzusuna həsr olunmuş sessiya keçirilib.**




UNESCO-nun Rasizmə Qarşı Şəhərlərin Koalisiyası təşkilatının rəhbəri **Benedetto Zakkirolinin** moderatorluğu ilə baş tutan panel sessiyada **Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev** çıxış edib.

Nazirliyin mətbuat xidmətinin verdiyi məlumata görə, Teymur Musayev səhiyyə sənayesinin texnoloji irəliləyişlərin, məlumatlara əsaslanan qərarların qəbulu və fərdiləşdirilmiş tibbin birləşməsi ilə formalaşacağını bildirib. O, süni intellekt və rəqəmsal həllərin ən mühüm töhfələrindən birinin ilkin səhiyyə xidmətlərinin gücləndirilməsi yolu ilə tibbi xidmətlərə çıxışın genişləndirilməsi olacağını diqqətə çatdırıb.

Nazir bildirib ki, son illər qlobal səhiyyə pandemiya, xəstəliklərin yayılması, iqlim dəyişikliyi kimi amillərin təsiri ilə böhran yaşayır: «Belə qlobal səhiyyə böhranları dağıdıcı olsa da, bu cür vəziyyətlər müsbət dəyişikliklər üçün imkanlar yaradır. Bu böhranlar vaksinlər, müalicə üsulları və tibbi texnologiyalar sahələrində təcili innovasiyalara təkan verir. Onlar həmçinin səhiyyə infrastrukturunun zəif tərəflərini müəyyənləşdirir, ölkələri islahatlar, daha dayanıqlı siyasət həyata keçirməyə, effektiv qərarların qəbulu üçün investisiyaları artırmağa, səhiyyədə innovativ yanaşmalara sövq edir».

Səhiyyə naziri vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyi altında sosialyönümlü siyasətin həyata keçirilməsi, rəqəmsal dövlət idarəçiliyinə keçid və iqtisadiyyatın şaxələndirilməsi Azərbaycan Respublikasının regionun aparıcı ölkəsi kimi mövqeyini gücləndirib: «Dövlət başçısı öz çıxışında qeyd etdiyi kimi, COP29-un Bakıda keçirilməsinə dair yekdil qərar ötən ilin noyabrında beynəlxalq ictimaiyyətin ölkəmizə böyük hörmət və etimadının göstəricisidir. Ətraf mühitin çirklənməsinin insan sağlamlığına təsirinin azaldılması və sağlam həyat tərzinin təşviqi Azərbaycan hökumətinin əsas prioritetlərindəndir. Əsas fəaliyyətlərə iqlim dəyişikliklərinə davamlı olan və aşağıkarbonlu səhiyyə sistemlərinin qurulması, yaşıl xəstəxanaların inkişafı və tibb işçi qüvvəsinin iqlimdən asılı olmayan fəaliyyətinin formalaşdırılması daxildir. Bunlar davamlı və sağlam gələcəyin vacib komponentləridir. Səhiyyə sistemlərinin gələcəyi daha proqnozlaşdırıcı, fərdiləşdirilmiş olmalıdır».

Teymur Musayev çıxışında qeyd edib ki, səhiyyə sektorunun inkişafı texnoloji tərəqqi, məlumatların təhlili və fərdiləşdirilmiş tibbə keçidin formalaşması ilə müəyyən ediləcək: «Biz tarixi dönüş nöqtəsindəyik. Dünyanın səhiyyə işçiləri çatışmazlığı ilə üzləşdiyi bir zamanda bizə yeni köməkçi - süni intellekt qoşulur. Onun ən mühüm töhfələrindən biri xüsusilə ilkin səhiyyə sistemlərini gücləndirməklə, səhiyyə xidmətlərinə çıxışı genişləndirmək olacaq. Bu texnologiyaların tam inteqrasiyası məqsədilə süni intellektin praktiki imkanlarından səmərəli istifadə etmək üçün qanunvericilik bazasının hazırlanması zəruridir».

Nazir vurğulayıb ki, gələcək səhiyyə siyasətində kibertəhlükələr və həssas tibbi məlumatlardan sui-istifadənin qarşısını almaq üçün onların təhlükəsizliyi, pasiyent hüquqları və süni intellektdən istifadənin tənzimlənməsi prioritet təşkil etməlidir: «Rəqəmsal alətlərin çox böyük faydaları olsa da, onlar insan amilini əvəz etməməli, tibb işçilərinə xəstələrlə birbaşa təmasa daha çox vaxt sərf etməyə imkan verən dəstəkləyici vasitələr olmalıdır».

«Süni intellektdən ilkin səhiyyə bələdçisi kimi istifadə fərdin sağlamlığını izləmək və həyat tərzi tövsiyələri vermək üçün faydalı ola bilər. Bu gün də süni intellekt, böyük məlumat bazası və rəqəmsal həllər səhiyyə xidmətlərinin təkmilləşdirilməsində mühüm rol oynayır. Bu texnologiyaların tam inteqrasiyası üçün onun məsuliyyətli və etik istifadəsini təmin etmək məqsədilə süni intellektin qanunvericilik çərçivələrinə daxil edilməsi vacibdir», - deyə Teymur Musayev bildirib.

AZƏRTAC xəbər verir ki, **Böyük Britaniyanın Lordlar Palatasının üzvü Syuzan Qrinfild** çıxışında rəqəmsal transformasiyanın dünyada baş verən dəyişikliklərə uyğun olaraq insan beyninə təsir göstərdiyini söyləyib. Qeyd edib ki, dünyada baş verən hadisələr müsbət məcrada gedirsə, insan beyni buna köklənir, lakin neqativ tendensiyalar beynin qavrama və analiz etmə funksiyalarına mənfi təsir edə bilər.

Qrinfild həmçinin rəqəmsal texnologiyaların inkişafı ilə paralel olaraq, beynin sağlamlığına yönəlmiş elmi araşdırmaların və maarifləndirmə tədbirlərinin vacibliyini də vurğulayıb.



**Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Dünya Bankının sabiq vitse-prezidenti İsmail Serageldin** deyib ki, ictimai səhiyyə tarixində ən böyük töhfələrdən biri mühəndislər tərəfindən olub - şəhərlərdə təmiz su və kanalizasiya sistemi qurulub: «Bu, bütün uşaqları xilas etməli olan böyük bir dəyişiklik idi. Beləliklə, sağlamlığı təmin etmək üçün biz ilk növbədə bunu düşünməliyik. Digər mühüm cəhət ondan ibarətdir ki, bir xəstəliyin qarşısının alınması müalicədən daha yaxşıdır. Mən yalnız su və kanalizasiya haqqında qeyd etdim, lakin sistemli iştirak da var və ağlabatan inkişafın addımları bu gün düşünülməlidir».

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri inkişafın istiqamətləri barədə danışarkən onu da vurğulayıb ki, bu gün qidalanma məsələsi də təşviq edilməlidir: «Düzgün qidalanma xüsusilə ucqar rayonlarda yaşayan yoxsul analar üçün vacibdir. Belə olduqda, ilk növbədə, onlar uyğun çəkidə körpələr həyata gətirəcək. İkincisi, həmin körpələr ana südü ilə qidalana biləcəklər. Beləliklə, uşağın doğulmamışdan əvvəlki dövründə, yəni hamiləliyin son dövründə və həyatının ilk altı ayında normal inkişafdan danışa bilərik. Bütün bunlar çox vacibdir. Problemlərin ilk təzahürləri məhz buradadır. Bu gün teletibb və süni intellektlə keçmiş illərdə mümkün olmayan rabitə şəbəkələrinə çatmaq imkanımız var», - deyə İsmail Serageldin əlavə edib.

**Moldovanın sabiq Baş naziri Kiril Qaburiç** bildirib ki, kiçik və ya kasıb ölkələr maliyyə vəsaiti əldə etməkdə çətinlik çəkirlər. Məlumatların paylanması bərabər deyil və çoxlu problemlər var. O, səhiyyə siyasəti, düzgün protokollar, səhiyyə xidmətlərinə çıxış və onların saxlanılması baxımından əlavə işlər görülməsinin əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, eyni zamanda, dövlət qurumları da ictimaiyyətə lazımi dəstəyi verməlidir.

**İsrailin sabiq Prezidenti, Knessetin keçmiş sədri, Hadassah Tibb Təşkilatının İdarə Heyətinin sədri Daliya İtzik** ölkəsinin ən böyük xəstəxanalarından birinin İdarə Heyətinin sədri kimi bu paneldə iştirak etməkdən şərəf duyduğunu söyləyib. Qlobal səhiyyə məsələsinin son dərəcə vacib olduğunu bildirən Daliya İtsiq qeyd edib ki, dünya müxtəlif səhiyyə siyasətlərinin tətbiqi fonunda pandemiyalar, iqlim dəyişikliyi və digər bu cür problemlərlə üzləşməyə davam edir: «Ona görə də bu problemləri qlobal nöqteyi-nəzərdən həll etmək üçün mən üzləşdiyimiz bir neçə vacib şərt haqqında düşünürəm. Birlikdə fəaliyyət göstərmək çox vacibdir. Xristian, müsəlman, yəhudi - hər kəs eyni vaxtda eyni müalicəni ala bilər. Biz xəstəxanamızda birgə mövcudluğumuzla fəxr edirik. Bütün icmalardan həkimlərimiz, müxtəlif ölkələrdən xəstələrimiz var. Biz bununla çox fəxr edirik. Nə qədər çox əməkdaşlıq etsək, işimiz dünyaya gözəl bir mesaj olacaq», - deyə Daliya İtzik əlavə edib.

Beynəlxalq əməkdaşlığın əhəmiyyətindən danışan natiq körpələrin sərhəd nə olduğunu anlamadığını deyib: «Xalqlar arasında yeni tədqiq olunmuş və təcrübə mübadiləsi ilə öyrənilmiş bilikləri yaymaq, tibbi texnologiya və tədqiqatları davam etdirmək çox vacibdir». Təbabətin sürətlə təkmilləşdiyini, tibbi yeniliklərin əmələ gəldiyini deyən Daliya İtzik onilliklər ərzində yaşanan fövqəladə hadisələrin bu prosesə mane olduğunu təəssüflə qeyd edib.

**Qlobal Əməkdaşlıq Forumunun prezidenti Amir Dossal** Azərbaycanın səhiyyə sektorunda gördüyü işlər, süni intellekt sahəsindəki nailiyyətləri barədə məlumat aldığını, ölkəmizdə bu sahədə görülən tədbirlərin təqdirəlayiq olduğunu qeyd edib. Onun sözlərinə görə, Azərbaycan bu sahədə digər ölkələrə kömək edə bilər.

«Hazırda 700 milyon insan qidalanma çatışmazlığından əziyyət çəkir. Biz bunun qarşısının alınması məsələsini yetərincə müzakirə etmirik. Düşünürəm ki, səhiyyənin milli mülkiyyətə çevrilməsi ilə biz bu problemin qarşısının alınması imkanlarını daha da artırırıq», - deyə Amir Dossal diqqətə çatdırıb.

**Hadassah Tibb Təşkilatının Baş direktoru Yoram Veiss** bildirib ki, dünyada demoqrafik dəyişikliklərlə yanaşı, elm də inkişaf edir. Elm həm də epidemiyanın baş verməsi, yeni bir pandemiya ehtimalı yaradır və hər kəs bunun fərqində olmalıdır. «Bununla yanaşı, antimikrob vasitələrdən istifadə çox problemlidir. Ona görə də bu məsələnin fərqində olmalıyıq», - deyə Y.Veiss vurğulayıb.

Panel sessiyada həmçinin BMT-nin Baş katibinin müavini, UNAIDS-nin İcraçı direktoru xanım Vinni Byanyima və digər rəsmilər çıxış ediblər.

Sonda mövzu ətrafında müzakirələr aparılıb, suallar cavablandırılıb.

# Vərəmlə Mübarizə üzrə Ölkə Əlaqələndirmə Komissiyasının növbədənkənar iclası keçirilib




**Vərəmlə Mübarizə üzrə Ölkə Əlaqələndirmə Komissiyasının (ÖƏK) «Azərbaycanda vərəmlə mübarizə sahəsində görülən işlər: nailiyyətlər, problemlər və gələcəyə baxış» mövzusunda növbədənkənar geniş iclası keçirilib.**

Bu barədə Səhiyyə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, tədbirdə Səhiyyə Nazirliyinin, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) rəhbərliyi, həmçinin Ümumdünya Səhiyyə Təşkilatının (ÜST), QİÇS, Vərəm və Malyariya ilə Mübarizə üzrə Qlobal Fondun, qeyri-hökumət təşkilatlarının nümayəndələri, habelə yerli və beynəlxalq ekspertlər iştirak ediblər.

İclasda çıxış edən səhiyyə naziri, **Ölkə Əlaqələndirmə Komissiyasının sədri Teymur Musayev** vərəmlə mübarizənin qlobal məsələ olduğunu bildirib. Teymur Musayev qeyd edib ki, «Vərəmlə mübarizə haqqında» Azərbaycan Respublikasının Qanunu 2000-ci ildə qəbul olunub. Həmçinin 2023-cü ildə Səhiyyə Nazirliyinin dəvəti ilə tanınmış beynəlxalq ekspertlər tərəfindən Azərbaycanda vərəmlə mübarizə sahəsində həyata keçirilən tədbirlərin qiymətləndirilməsinin aparılması diqqətə çatdırılıb.

Tədbirin mahiyyətini vurğulayan səhiyyə naziri bildirib ki, ölkədə vərəmlə mübarizə sahəsində həyata keçirilən addımlar, əldə olunan nailiyyətlər və mövcud problemlərin müzakirəsi, eyni zamanda, qlobal və regional çağırışlar nəzərə alınaraq, gələcək strategiyalar iclasın nəticəsi kimi müəyyən ediləcək.

**İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev və TƏBİB-in icraçı direktoru Vüqar Qurbanov** çıxışlarında vərəmə qarşı aparılan profilaktik tədbirlərin, dərmana davamlı vərəmlə mübarizənin, infeksiyanın erkən aşkarlanması və müasir müalicə üsullarının, risk qrupları arasında maarifləndirmə işlərinin və qlobal təcrübələrin ölkəmizdə tətbiqinin vacibliyini vurğulayıblar.



İclasda **Səhiyyə Nazirliyi Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun direktoru İradə Axundovanın** «Azərbaycanda vərəmlə bağlı cari vəziyyət», **TƏBİB-in Ağciyər Xəstəlikləri Mərkəzinin direktoru Nəhmət Rəhmanovun** «Vərəmlə mübarizə sahəsində TƏBİB-in gördüyü işlər», **ÜST-nin Avropa Regional Bürosunun vərəm üzrə regional meneceri Askar Yedilbayevin** «Vərəmlə mübarizə sahəsində ÜST Avropa regionunda olan cari vəziyyət» mövzularında təqdimatları, həmçinin səhiyyə siyasəti və islahatları sahəsində **ÜST-nin beynəlxalq eksperti Akaki Zoidzenin** «Azərbaycanda vərəmlə mübarizə fəaliyyətinin qiymətləndirilməsinin hesabatı» dinlənilib.

Tədbirdə müvafiq tövsiyələr qəbul edilib və gələcək fəaliyyət planı müəyyənləşdirilib. Qərara alınıb ki, Milli Vərəm Proqramının (MVP) idarəçiliyi və təkmilləşdirilməsi Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən aparılsın. Eyni zamanda, vərəmlə mübarizədə iştirak edən digər əsas maraqlı tərəflərlə əlaqələndirmə ilə bağlı Azərbaycanda vərəmə nəzarətin idarə edilməsi və əlaqələndirilməsi üzrə mövcud mexanizmlərin qiymətləndirilməsi tövsiyə olunub.

İclasda vərəmli xəstələrə yardımın göstərilməsi sahəsində sistem miqyasında əldə olunan nailiyyətlər və əməliyyat çətinlikləri haqqında dəyərli məlumatlar verilib. Eyni zamanda, vərəmlə mübarizə xidmətlərinin ilkin səhiyyə sistemi ilə əlaqələndirilməsinin və inteqrasiyasının təkmilləşdirilməsinin məqsədəuyğunluğu nəzərdən keçirilib. Səhiyyə Nazirliyinin vərəmlə mübarizə tədbirlərinin gücləndirilməsi və əhalinin sağlamlığının yaxşılaşdırılması üzrə strateji prioritetləri müəyyən edilib.

Təqdimatlardan sonra iclasın nəticələrinin yekun xülasəsi ilə çıxış edən **səhiyyə nazirinin müavini Nadir Zeynalov** qeyd edib ki, tədbirdə səsləndirilən fikir və təkliflər vərəmlə mübarizədə gələcək fəaliyyətlərdə öz töhfəsini verəcək.

Qeyd edək ki, Vərəmlə Mübarizə üzrə Çoxsahəli Əməkdaşlıq və Hesabatlılıq Mexanizminin yaradılması bir vəzifə olaraq qarşıda durur. Belə ki, Əməkdaşlıq və Hesabatlılıq Mexanizmində BMT-nin 2030-cu ilə qədər vərəmə son qoyulması üzrə Yüksək Səviyyəli İclasının Bəyannaməsində müəyyən edilən məqsədlərin və meyarların həyata keçirilməsini dəstəkləmək məqsədilə 2026-2030-cu illəri əhatə edən vərəmə son qoymaq üçün Milli Strateji Planın və 2026-2027-ci illər üçün əməliyyat planının hazırlanması nəzərdə tutulub. Həmçinin sənəd 2026-2030-cu illər üçün Vərəmlə Mübarizə üzrə Milli Strateji Planın qəbulundan əvvəl və sonra vərəmə cavab vermək üçün səhiyyə sektorunda və ondan kənarda idarələrarası fəaliyyət üçün ümumi əlaqələndirmə çərçivəsinin təmin edilməsi, habelə Səhiyyə Nazirliyinin Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun Milli Vərəm Proqramı (MVP) üzrə əlaqələndirici orqan kimi rolunun müəyyən edilməsi kimi məsələləri özündə ehtiva edir.

# Səhiyyə naziri Mentorluq proqramı çərçivəsində keçirilən müsabiqənin qalibi ilə görüşüb



**Səhiyyə naziri Teymur Musayev «Yüksəliş» müsabiqəsinin Mentorluq proqramı çərçivəsində dördüncü «Yüksəliş» müsabiqəsinin qalibi Ayaz Məmmədovla görüşüb.**

Bu barədə nazirliyin mətbuat xidmətindən verilən məlumatda bildirilib ki, görüş zamanı Mentorluq proqramının əhəmiyyəti, qaliblərin peşəkar inkişafına verdiyi töhfə və səhiyyə sahəsində müasir idarəetmə perspektivləri müzakirə edilib.

Ayaz Məmmədovu təbrik edən nazir onun əldə etdiyi uğurun gələcək karyerasında yeni imkanlar açacağına inamını ifadə edib. O, Mentorluq proqramının peşəkar kadrların inkişafına verdiyi töhfəni vurğulayıb, qarşılıqlı əməkdaşlığın və təcrübə mübadiləsinin vacibliyini qeyd edib.

«Yüksəliş» müsabiqəsinin peşəkar rəhbər şəxslərin yetişməsində oynadığı mühüm rolu yüksək qiymətləndirən nazir onların dəstəklənməsinin ölkənin səhiyyə sisteminin davamlı inkişafına mühüm töhfə verəcəyini söyləyib.

# Teymur Musayev: «Azərbaycan səhiyyəsində süni intellektin gündəlik tibbi praktikada tətbiqi nəzərdə tutulur»

**Azərbaycan səhiyyəsində məqsədli şəkildə rəqəmsallaşma gedir və süni intellektin gündəlik tibbi praktikada tətbiqi nəzərdə tutulur. Bu, müəyyən istiqamətlərdə, hələlik əsasən radiologiyada artıq tətbiq olunur.**

AZƏRTAC xəbər verir ki, bunu XII Qlobal Bakı Forumu çərçivəsində jurnalistlərə açıqlamasında səhiyyə naziri Teymur Musayev deyib.

«İnanırıq ki, yaxın zamanlarda bu tətbiq digər tibbi sahələri də əhatə edəcək», - deyə nazir bildirib.

Tibbi sığorta zərfində xidmətlərin genişləndiriləcəyini diqqətə çatdıran nazir deyib: «Hazırda tibbi sığorta zərfinə 3315-dən çox tibbi xidmət daxil edilib. İldən-ilə bu siyahı genişləndirilir. İnanırıq ki, bu il də siyahıya müəyyən tibbi xidmətlər əlavə ediləcək».

Saxta sertifikatlı plastik cərrahlarla bağlı suala cavab olaraq nazir bildirib ki, bu məsələnin araşdırılması üçün yaradılmış, Səhiyyə Nazirliyi, Baş Prokurorluq, Daxili İşlər Nazirliyi və Elm və Təhsil Nazirliyinin səlahiyyətli nümayəndələrindən ibarət Xüsusi Təftiş Komissiyasının artıq 9 iclası baş tutub.

«Demək olar ki, sənədləri təqdim etmiş əksər mütəxəssislərlə görüşlər keçirilib. Onların sənədləri təftiş olunub. Komissiyanın işi aprelin əvvəllərində başa çatacaq və Səhiyyə Nazirliyi bu təhqiqatlarla əlaqədar rəsmi açıqlama verəcək», - deyə T.Musayev əlavə edib.

Nazir xatırladıb ki, ötən il dekabrın 18-də Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Akademiyasının açılışı olub. "Azərbaycan həmin akademiyanın onlayn istifadəsini tətbiq etmək istəyir. Bu barədə ÜST ilə razılığa gəlinib. Onlayn akademiyada əsasən iqlim dəyişikliyinin qlobal səhiyyəyə təsirləri öyrəniləcək», - deyə Teymur Musayev əlavə edib.

# Sağlamlıq turizminin inkişafında Naftalan neftinin rolunun artırılmasına dair müzakirələr aparılıb

**Səhiyyə Nazirliyində Azərbaycanda sağlamlıq turizminin davamlı inkişafının təmin edilməsi məqsədilə yaradılan işçi qrupunun növbəti iclası keçirilib.**





Bu barədə nazirliyin mətbuat xidmətindən məlumat verilib ki, səhiyyə nazirinin müavini İlqar Qasımovun sədrliyi ilə keçirilən işçi qrupunun iclasında Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin, Azərbaycan Standartlaşdırma İnstitutunun, Səhiyyə Nazirliyinin, Elm və Təhsil Nazirliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Naftalan Şəhər İcra Hakimiyyətinin nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən İlqar Qasımov Naftalanın sağlamlıq turizmi şəhəri kimi dünyada tanıdılmasının vacibliyini vurğulayıb: «İşçi qrupunun iclasının məqsədi Naftalan neftinin və ondan hazırlanan preparatların müalicəvi təsirinin beynəlxalq miqyasda tanıdılmasının təmin edilməsidir. Eyni zamanda, yeni tibbi araşdırmaların aparılmasına və sözügedən məhsullardan tibbi məqsədlər üçün daha geniş istifadə olunmasına dair işçi qrupu tərəfindən təkliflər hazırlanıb».

İclasda Səhiyyə Nazirliyinin Səhiyyə siyasəti şöbəsinin müdiri Ramik Quliyevin işçi qrupu tərəfindən aparılan işlər üzrə məruzəsi dinlənilib və şöbənin baş məsləhətçisi Nigar Nəzərlinin hazırlanan təkliflərə dair təqdimatı nümayiş olunub.

İclasda həmçinin Naftalan Şəhər İcra Hakimiyyəti başçısının müavini Kəmalə Hüseynova, Neft-Kimya Prosesləri İnstitutunun baş direktoru akademik Vaqif Abbasov, Akademik A.Qarayev adına Fiziologiya İnstitutunun baş direktoru Ulduz Həşimova, Səhiyyə Nazirliyi Elmi Tədqiqat Tibbi Bərpa İnstitutunun direktoru Mətanət Əfəndiyeva və Azərbaycan Tibb Universitetinin Əczaçılıq toksikologiyası və kimya kafedrasının müdiri Eldar Qarayev məruzələrlə çıxış ediblər.

Sonda işçi qrupu tərəfindən görülən işlər üzrə və planlaşdırılan növbəti addımlara dair müzakirələr aparılıb.

Xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən “Sağlamlıq turizminin inkişafında Naftalan neftinin rolunun artırılması ilə bağlı əlavə tədbirlər haqqında” Sərəncam imzalanıb. Sağlamlıq turizminin davamlı inkişafının və Sərəncamda qarşıya qoyulan tapşırıqların icrasının təmin edilməsi məqsədilə səhiyyə naziri Teymur Musayevin müvafiq əmri ilə işçi qrupu yaradılıb.



# Reproduktiv sağlamlıq və ailə planlaşdırılması mövzusunda tədbirlər keçirilib

**Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM) ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşlığı çərçivəsində Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Texniki Kollecində və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində Humanitar Kollecdə «Reproduktiv sağlamlıq və ailə planlaşdırılması» mövzusunda maarifləndirici tədbirlər keçirilib.**

Tədbirlər gənc nəsil arasında sağlam həyat tərzinin təbliği, reproduktiv sağlamlıq davranışlarının formalaşdırılması ilə bağlı maarifləndirilmə məqsədilə təşkil olunub.

İSİM-in Monitorinq və təhlil şöbəsinin müdir müavini Zümrüd Kazımova geniş təqdimatla çıxış edərək, gənclərin həyatında reproduktiv sağlamlıqla bağlı yaşanan problemlərdən, ailə planlaşdırılmasının vacibliyindən, erkən nikahların fəsadlarından bəhs edib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Ailə problemləri şöbəsinin müdir müavini Kamila Əliyeva reproduktiv sağlamlığın əsas amilləri, fərdi gigiyena qaydaları, zərərli vərdişlərin sağlamlığa mənfi təsirləri barədə ətraflı məlumat verib.

Tədbirlərdə həmçinin erkən nikahların fəsadları, irsi yolla ötürülən xəstəliklər barədə çıxışlar olub, nikahdan öncə aparılan tibbi müayinənin vacibliyi vurğulanıb.

Yekunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# Cəbrayılda ikigünlük səyyar oftalmoloji müayinələr keçirilib





**«Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı» çərçivəsində Səhiyyə Nazirliyi işğaldan azad olunmuş ərazilərə köçürülən vətəndaşlar arasında müxtəlif xəstəliklərin aşkarlanması məqsədilə kompleks müayinələrin aparılması, tibbi konsultasiyaların verilməsi və sağlamlıq məmnunluğunun təmin edilməsi üzrə silsilə tədbirləri davam etdirir.**

Növbəti belə aksiya nazirliyin Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Səyyar Klinikası tərəfindən Cəbrayıl şəhərində keçirilib.

Operativ şəkildə vətəndaşların müayinəsi, görmə qabiliyyətinin zəifləməsinin qarşısının alınması, görmə patologiyasının erkən diaqnostikasının aşkarlanması və müalicələrin təyin olunması məqsədilə aparılan ikigünlük səyyar oftalmoloji aksiyada müayinələr əsasında vətəndaşlarda quru göz sindromu, allergik konyunktivit, refraksiya patologiyası, miopik astiqmatizm və digər xəstəliklər aşkarlanıb. Eyni zamanda, göz xəstəlikləri ilə bağlı ümumi monitorinqlər aparılıb və əldə edilən nəticələr müzakirə olunub. Həmçinin ciddi problemlərlə üzləşən və çətin əməliyyat tələb olunan pasiyentlərin Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinə gəlmələrinə şərait yaradılıb.

Ümumilikdə aksiya çərçivəsində 190-a yaxın vətəndaş müayinələrdən keçirilib.

Aksiya zamanı məlumat verilib ki, bəzən göz xəstəliklərinin simptomları diqqətdən kənarda qala bilər. İlkin mərhələdə göz patologiyasını müəyyən etmək üçün sakinlərə mütəmadi olaraq ümumi oftalmoloji müayinələrdən keçmələri tövsiyə olunub.

Daha sonra aksiya iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Səyyar Klinikası daha bir tibbi aksiyanı Mərdəkan qəsəbəsində yerləşən 1 saylı Sağlamlıq İmkanları Məhdud Uşaqlar üçün Sosial Xidmət Müəssisəsində keçirib.

Səyyar Klinikanın təşkil etdiyi daha bir aksiya Azərbaycan Tibb Universitetində (ATU) baş tutub. Səhiyyə Nazirliyi, Milli Oftalmologiya Mərkəzi və Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin birgə təşəbbüsü ilə keçirilən ikigünlük tibbi aksiya Beynəlxalq Qlaukoma Həftəsi çərçivəsində akademik Zərifə Əliyevanın anadan olmasının 102-ci ildönümünə həsr edilib. Aksiya çərçivəsində ATU-nun 200-ə yaxın həkim, müəllim və tələbəsi müayinə olunub.

# Səhiyyə məlumatlarının vahid məkanda birləşdirilməsi Rəqəmsal Səhiyyə Mərkəzinin prioritetlərindəndir



**Səhiyyə Nazirliyi Rəqəmsal Səhiyyə Mərkəzinin baş direktoru Cəbrayıl Əsədzadə qurumun fəaliyyəti ilə bağlı nazirliyin mətbuat xidmətinə müsahibə verib.**

**— Cəbrayıl müəllim, rəhbərlik etdiyiniz «Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzi» yenilənərək, «Rəqəmsal Səhiyyə Mərkəzi»adı ilə fəaliyyət göstərməyə başlayıb. Bu qərar hansı zərurətdən yaranıb və bu dəyişiklik nə kimi perspektivlər vəd edir?**

— Mərkəzin adının dəyişdirilməsi qarşıya qoyulan daha geniş strateji hədəflərin təzahürüdür.

Ümumiyyətlə, səhiyyə məlumatlarının kağız daşıyıcılardan elektron formata keçirilməsi prosesləri Prezident İlham Əliyev tərəfindən təsdiqlənmiş «Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)»nın icrası məqsədilə, 2005-2012-ci illəri əhatə edən və uğurla həyata keçirilmiş Dövlət Proqramları çərçivəsində başlanılıb. 2006-cı ildən etibarən «Vətəndaşların elektron sağlamlıq kartı», «Tibbi müayinə kartı», «Nümunəvi tibbi informasiya sistemləri»yaradılıb və tibb müəssisələrində tətbiq edilib.

O zaman səhiyyənin elektronlaşdırılması sahəsində artan hədəflərin vaxtında və daha yüksək peşəkarlıqla qarşılanması, elektronlaşdırma proseslərinə nəzarət mexanizminin gücləndirilməsi məqsədilə bu sahədə ixtisaslaşan qurumun yaradılması məsələsi aktuallaşdı. Nəticədə, 2010-cu ildə Səhiyyə Nazirliyinin müvafiq əmri ilə «Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzi» yaradıldı. Həmin dövrdə səhiyyə sahəsinin elektronlaşdırılması prosesləri daha da sürətləndi. Dövrün tələblərinə uyğun olaraq, 20-dən çox tibbi elektron reyestr, 40-dan çox elektron xidmət, «Kadrların avtomatlaşdırılmış uçotu», «Yoluxucu xəstəliklərin elektron müşahidəsi», «Vahid qan bankı», «Təcili tibbi yardım stansiyasının dispetçer xidmətinin sistemləri»kimi ölkədə səhiyyə sahəsinin inkişafında müstəsna rol oynayan layihələr reallaşdırıldı.

Səhiyyə məlumatlarının vahid sistemdə toplanması məqsədilə 2012-ci ildə bütün sistemlər «Vahid Səhiyyə İnformasiya Sistemi (VSİS)»ndə birləşdirildi. Son illər həyata keçirilən mühüm rəqəmsallaşma prosesləri nəticəsində Rəqəmsal resept, Dərman vasitələrinin dövriyyəsinin təqib və izləmə sistemi, e-Epikriz, e-Bülleten kimi yeni sistemlər VSİS çərçivəsində yaradılıb.

Hazırda ölkəmizdə rəqəmsallaşmanın elektronlaşmanı sürətlə əvəz etməsi səhiyyə sahəsində də öz əksini tapır. Səhiyyənin rəqəmsallaşdırılması istiqamətində başlıca prioritetlər səhiyyə məlumatlarının rəqəmsallaşaraq vahid landşaftda birləşdirilməsi, bu məlumatlara rahat interfeyslər vasitəsilə vətəndaşların və tibb işçilərinin əlçatanlığının təmin edilməsi, səhiyyə sahəsində qərarverici orqanların dəqiq analitik və statistik məlumatları əldə etməsi, dövlət qurumlarının göstərdiyi xidmətlərdə və fəaliyyətində tələb olan tibbi məlumatların əldə edilməsi kimi məqsədlərə çatmaqdan ibarətdir. Səhiyyənin rəqəmsallaşması sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi, bütün dünyada aktual olan kibertəhdidlərin qarşısının alınması, idarəçiliyin effektivliyinin artırılması qarşıda duran vacib vəzifələrdir.

Qeyd edilən məqsəd və vəzifələri uğurla icra etmək üçün Səhiyyə Nazirliyinin Kollegiyasının qərarı ilə «Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzi»nin adı dəyişdirilərək «Rəqəmsal Səhiyyə Mərkəzi» adlandırılıb və müasir çağırışlara cavab verən Nizamnaməsi təsdiq edilib.

Mərkəzin strukturunun, fəaliyyət istiqamətlərinin, kadr potensialının müasir çağırışlara uyğun formalaşdırılması, rəqəmsal texnologiyalar üzrə ixtisaslaşmış kadrların işə cəlb edilməsi prosesinə artıq başlanıb. Mərkəzin fəaliyyətinin ölkədə səhiyyə sahəsinin rəqəmsallaşmasına mühüm töhvə verəcəyinə inanırıq.

**— Səhiyyənin rəqəmsallaşmasının gələcəyi ilə bağlı hədəfiniz nədir və Rəqəmsal Səhiyyə Mərkəzi bu hədəfə çatmaq üçün necə töhfə verə bilər?**

— Səhiyyənin rəqəmsallaşması üzrə hədəflər bütün dünyada oxşardır və gələcək perspektivlər olduqca ümidvericidir. Rəqəmsal texnologiyaların inkişafı səhiyyə xidmətlərinə və məlumatlarına çıxışın yaxşılaşdırılmasında böyük rol oynayır. Teletibb və elektron sağlamlıq qeydləri kimi rəqəmsal vasitələrin tətbiqi xəstənin diaqnozunun müəyyən edilməsini, müalicəsini və monitorinqini yaxşılaşdıra bilər. Səhiyyə məlumatlarının vahid landşaftda birləşdirilməsi və təhlili ictimai sağlamlığı yaxşılaşdırmaq və səhiyyə müəssisələrinin fəaliyyətini optimallaşdırmaq üçün əsaslandırılan qərarlar qəbul etməyə kömək edəcək.

Səhiyyə xidmətlərinin sürətinin, dəqiqliyinin və əlçatanlığının artırılması üçün rəqəmsal həllərin tətbiqi qarşıda duran prioritet məsələlərdəndir. Hazırda Rəqəmsal transformasiya çərçivəsində prioritet istiqamətlər Tibbi Rəqəmsal Əkiz Sisteminin yaradılması, Rəqəmsal səhiyyə standartlarının və təsnifatlarının tətbiqi, tibbi məlumatların vahid informasiya məkanının formalaşması, sadə və asan anlaşılan elektron xidmətlərin tətbiqidir. Mərkəzin bütün fəaliyyəti bu hədəflərə çatmağa yönəlib.

**— Səhiyyənin rəqəmsallaşmasında gələcək illərdə ən böyük təsirə malik olacaq yeni texnologiyalar (məsələn, süni intellekt, blokçeyn, əşyaların interneti) hansılardır? Mərkəzin rəqəmsal sağlamlıq həllərinin inkişaf edən texnologiyalara və səhiyyə ehtiyaclarına uyğun olmasını təmin etmək üçün hansı strategiyalar hazırlanır?**

— Rəqəmsal səhiyyə innovasiyaları pasiyentlərə göstərilən xidmətlərin həm keyfiyyətini, həm də əlçatanlığını əhəmiyyətli dərəcədə yaxşılaşdırır. Bu texnologiyalar həkimlərin işini avtomatlaşdırmaqla yanaşı, pasiyentlərin vaxt və məsafə baxımından məhdudiyyətlərini aradan qaldırır. Məsələn, teletibb texnologiyasının tətbiqi ucqar ərazilərdə yaşayan vətəndaşlara keyfiyyətli tibbi məsləhətlər almaq imkanı yaradır. Süni intellektin tətbiqi xəstəliklərin erkən diaqnostikası və müalicə prosesini sürətləndirir. Süni intellekt əsaslı sistemlər böyük həcmdə tibbi məlumatları avtomatik emal edərək, tibbi personalın iş yükünü azaldır. Təbii dil emalı (Natural Language Processing, NLP) texnologiyaları həkim qeydlərini avtomatik analiz edib strukturlaşdırır. Süni intellekt pasiyent məlumatlarını təhlil edərək, fərdi müalicə planları hazırlayır. Genetik analizlərə əsaslanaraq xəstəliklərə qarşı fərdi risk səviyyəsini qiymətləndirir və preventiv tədbirlər təklif edir.

Süni intellekt radiologiya sahəsində də xüsusi əhəmiyyət kəsb edir. Rentgen, MRT və KT görüntülərini analiz edərək, həkimlərə daha sürətli və dəqiq diaqnoz qoymağa kömək edir. Məsələn, dərin öyrənmə (deep learning) modelləri xərçəngin erkən mərhələlərdə aşkarlanmasına kömək edə bilər.

«Tibbi əşyaların interneti»müxtəlif cihazlar vasitəsilə tibbi məlumatların toplanması və sağlamlığın monitorinqi prosesini əvvəllər heç zaman görünməyən səviyyəyə qaldırır.

Tibbi Rəqəmsal Əkiz Sistemi (TRƏS) vətəndaşların müxtəlif tibb müəssisələrinə müraciətlərinin, müalicələrinin, laborator müayinələrinin, müxtəlif formatda qeyd edilən radioloji müayinələrinin, peyvəndlərinin, reseptlərinin məlumatlarını əhatə edir. Bu layihənin həyata keçirilməsi həkimlərə vətəndaşın sağlamlığı haqqında tam dolğun məlumat almağa, daha dəqiq və operativ diaqnoz qoymaqla düzgün müalicə təyin etməyə, tibbi xidmətlərin keyfiyyətini yüksəltməyə imkan verəcək.

Səhiyyə sahəsinin strateji hədəflərinə çatmaqda bu sistemlərin tətbiqi çevikliyi artıracaq və elmi-tibbi araşdırmalar üçün geniş məlumat bazası formalaşdıracaq.

**— Rəqəmsal səhiyyə həllərinin həm xəstələr, həm də səhiyyə işçiləri üçün əlçatan və istifadəçi dostu olması necə təmin edilir?**

— Vətəndaşların rəqəmsal səhiyyə həllərindən daha geniş və effektiv istifadə etməsi üçün sadə və intuitiv platformaların yaradılması əsas prioritetdir.

İstifadəçilər üçün «Elektron Səhiyyə»və «Reseptim»mobil tətbiqləri istifadəyə verilib. Bu istifadəçi dostu mobil tətbiqlər vətəndaşlara səhiyyə xidmətlərini daha əlçatan etmək məqsədi güdür. «Elektron səhiyyə»mobil tətbiqi vasitəsilə vətəndaşlar, tibb işçiləri, sahəvi biznes fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslər Səhiyyə Nazirliyinin təqdim etdiyi elektron xidmətlərdən faydalana bilirlər.

Bununla yanaşı, vətəndaşların maarifləndirilməsi məqsədilə vebinarlar, təlimlər təşkil edilir və sosial media üzərindən məlumatlandırıcı məzmunlar paylaşılır. Xüsusilə, səhiyyə sahəsində ixtisaslaşmış «Sağlam Radio»93.0 FM vasitəsilə rəqəmsal yeniliklər haqqında da məlumatlar mütəmadi olaraq ictimaiyyətə çatdırılır.

**— Səhiyyənin rəqəmsallaşmasında məlumat pozuntuları və ya kibertəhlükəsizlik təhdidləri ilə bağlı risklər necə idarə olunur?**

— Hazırda rəqəmsal səhiyyədə ən aktual məsələlərdən biri məlumatların təhlükəsizliyi və məxfiliyinin qorunmasıdır. Eyni zamanda, rəqəmsal səhiyyə həllərinin əlçatan olması da vacibdir. Bu məsələlərə yanaşarkən biz texnoloji tərəqqini nəzərə alaraq həm hüquqi, həm də sosial aspektləri diqqətlə qiymətləndiririk.

Şəxsi məlumatların məxfiliyi və təhlükəsizliyinin təmin edilməsi bizim üçün ən yüksək prioritetdir. Bunun üçün Rəqəmsal Səhiyyə Mərkəzində xüsusi Kibertəhlükəsizlik şöbəsi yaradılıb. Burada istifadə edilən müasir kibertəhlükəsizlik alətləri və xidmətləri yalnız informasiya təhlükəsizliyini təmin etmir, bununla yanaşı, həm də məlumatların məxfiliyini, bütövlüyünü və əlçatanlığını qorumağa yönəldilib. Məlumatların təhlükəsizliyini təmin etmək üçün şifrələmə texnologiyaları, çoxfaktorlu autentifikasiya və məlumatların saxlanılması ilə bağlı beynəlxalq təhlükəsizlik standartlarına uyğun tədbirlər görülür. Mövcud infrastrukturun qorunması, müxtəlif təhdid modellərinin analizi, gələcəkdə yarana biləcək potensial risklərin qarşısının alınması üçün tədbirlər həyata keçirilir. Bundan əlavə, sistemlərdə mütəmadi olaraq təhlükəsizlik auditi aparılır və yalnız icazəli şəxslərin məlumatlara çıxışı təmin edilir.

**— Səhiyyə sisteminin rəqəmsallaşmasında qurumun hansı əsas tərəfdaşlıqlarını qeyd etmək istərdiniz? Bu əməkdaşlıqların uğur qazanması üçün hansı addımlar atılır?**

— Səhiyyənin rəqəmsallaşmasında dövlət qurumları, texnoloji şirkətlər və beynəlxalq səhiyyə təşkilatları ilə sıx əməkdaşlıq edirik. Qanunvericiliyə uyğun olaraq, məlumatların «MyGov»rəqəmsal hökumət platformasına inteqrasiyası mərhələli şəkildə davam etdirilir.

Hazırda Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və TƏBİB ilə «Səhiyyə sahəsinin rəqəmsallaşdırılması üzrə Yol Xəritəsi»hazırlanıb və 2024-cü ilin sentyabr ayından həyata keçirilir. Sistemlərdə mövcud olan məlumatların dürüstləşdirilməsi, sistemlər arasında inteqrasiya, məlumatların paylaşılması və əlaqələndirilməsi üzrə tədbirlər icra edilir. Bu sahədə qarşılaşdığımız ən böyük çətinliklər məlumatların standartlaşdırılması və müxtəlif platformalar arasında uyğunluğun təmin olunmasıdır. Bu işlərin uğurla həyata keçirilməsi üçün biz sistemli yanaşmanı, qarşılıqlı dəstəyi və güclü əlaqələr qurmağı vacib hesab edirik. Nəticə etibarilə, bu əməkdaşlıq ölkədə səhiyyə xidmətlərinin keyfiyyətinin artırılmasına və əhalinin rifahının yaxşılaşdırılmasına təkan verəcək.

# Səhiyyə mütəxəssisləri üçün farmakonəzarət sistemi üzrə seminarlar keçirilib

**Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi (AEM) Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin dəstəyi ilə səhiyyə mütəxəssisləri üçün «Farmakonəzarət», «Əlavə təsirlər. Səbəb-nəticə əlaqəsinin qiymətləndirilməsi», «Risklərin minimallaşdırılması tədbirləri» mövzularında seminar-treninq keçirib.**

AEM-dən verilən məlumata görə, seminar-treninqdə ümumilikdə 24 dövlət müalicə-profilaktika müəssisəsindən 29 nümayəndə iştirak edib.

Təlimdə AEM-in Farmakonəzarət şöbəsinin müdiri Fərid Həsənov qeyd edib ki, farmakonəzarət dərmanların keyfiyyət və təhlükəsizliyi baxımından böyük rol oynayan məsələlərdən biridir. Burada risklərin qiymətləndirilməsi, araşdırmaların aparılması əhəmiyyətli təsirə malikdir.

Həmin şöbənin müdir müavini Xalisə Əkbərova təqdimatla çıxış edərək AEM-in yaranma tarixi, dərman vasitələrinə farmakonəzarətin məqsədləri və tarixi, Azərbaycanda bu sahədə mövcud olan qanunvericilik və qaydalar, ölkəmizin farmakonəzarət sistemi haqqında məlumat verib. O həmçinin Ümumdünya Səhiyyə Təşkilatının Beynəlxalq Monitorinq Proqramı, əlavə təsirlərin təsnifatı barədə də məlumat verib, bildiriş kartları və onlayn bildirişlərin vacibliyindən də danışıb.





Ekspert Rəfiqə İbrahimova isə əlavə təsirlər və səbəb-nəticə əlaqələrinin qiymətləndirilməsi mövzusunda təqdimatla çıxış edib. O, əlavə təsirlər və dərman vasitəsi arasında səbəb-nəticə əlaqəsinin qiymətləndirilməsi üsulları və risklərin minimallaşdırılması üzrə müxtəlif tədbirlər barədə danışıb.

Seminarda iştirakçıların sualları cavablandırılıb, təcrübədə rast gəlinən real nümunələrin təhlili aparılaraq müzakirə edilib.

Tədbirin sonunda bütün iştirakçılara Analitik Ekspertiza Mərkəzi tərəfindən sertifikatlar təqdim olunub.

AEM-də digər belə təlim özəl müalicə-profilaktika müəssisələrinin nümayəndələri üçün təşkil olunub. «Özəl müalicə-profilaktika müəssisələrində farmakonəzarətin təşkili və idarə edilməsi. Əlavə təsir» mövzusunda təlimdə ümumilikdə 29 özəl müalicə-profilaktika müəssisəsindən 31 nümayəndə iştirak edib.

AEM-in Farmakonəzarət şöbəsinin müdiri Fərid Həsənov, həmin şöbənin mütəxəssisləri Gilə İbrahimli və Vüsalə Xəlilli mövzular ətrafında təqdimatlarla çıxış edib, vacib mövzular haqqında məlumat veriblər.

# Dərman idxalçı şirkətlərinin nümayəndələri ilə maarifləndirici görüş keçirilib

**Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzi (AEM) qanunvericiliyə uyğun olaraq, keçən il yanvarın 1-dən etibarən mərhələli olaraq «Dərman Vasitələrinin Təqib və İzləmə Sistemi"nin (DVTİS) tətbiqini təmin edir və bu sahədə nəzarəti həyata keçirir. Mərkəzdən mütəmadi olaraq verilən məlumatlarda qeyd edildiyi kimi, ilkin mərhələdə psixotrop və güclü təsir edən dərman vasitələrinin dövriyyəsinə Daxili İşlər Nazirliyi tərəfindən verilmiş xüsusi icazəyə malik tibb və əczaçılıq müəssisələrində həmin qrup dərman vasitələrinin sistem vasitəsilə izlənilməsi həyata keçirilir.**

Növbəti mərhələ olaraq, müəyyən edilmiş altı dərman vasitəsinin izlənilməsinin başlaması səbəbi ilə, həmçinin sistemdən istifadəni mümkün qədər asanlaşdırmaq və optimallaşdırmaq məqsədilə AEM-in Dərman vasitələrini təqib və izləmə şöbəsinin əməkdaşları tərəfindən 10 idxalçı şirkətin nümayəndəsi üçün maarifləndirmə xarakterli görüş təşkil olunub.

Görüşdə izlənilməsi nəzərdə tutulmuş dərman vasitələri, DataMatrix kodun mahiyyəti, sistemin iştirakçıları, idxal bildirişi zamanı hansı məlumatların daxil edilməsi, aptekin satış bildirişi və bu kimi digər vacib məqamlar haqqında məlumat verilib. Təqdim olunan məlumatın daha da yadda qalması üçün nəzəri biliklər təqdim olunduqdan sonra, tədbir əməkdaşlar tərəfindən interaktiv olaraq davam etdirilib.

Görüşün sonunda şirkət nümayəndələrinin onlara çətinlik yaradan məqamlara dair sualları AEM əməkdaşları tərəfindən cavablandırılıb.

# AEM özəl tibb fəaliyyəti ilə məşğul olanlara müraciət etdi

**Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi (AEM) özəl tibb fəaliyyəti ilə məşğul olan sahibkarlara müraciət ünvanlayıb. Bildirilir ki, son zamanlar sahibkarlıq subyektlərinə nəzarət tədbirləri ilə bağlı keçirilən yoxlamalar barədə məlumatlı olan dələduzlar bundan sui-istifadə edir, qeyri-qanuni qaydada yoxlama reydləri keçirməyə cəhd edirlər. Belə hallar haqqında AEM-ə məlumatlar daxil olur.**

Müraciətdə ölkə ərazisində özəl tibb fəaliyyəti ilə məşğul olan sahibkarlıq subyektlərinin nəzərinə çatdırılır ki, səhiyyə ilə bağlı xidməti yoxlamaların keçirilməsi «Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında» Qanunla tənzimlənir. Keçirilməli olan xidməti yoxlamaların qanuniliyini müəyyən etmək üçün sahibkarlıq subyektlərinin vergi ödəyicisinin eyniləşdirmə nömrəsi Ədliyyə Nazirliyinin https:yoxlama.gov.az saytının vahid məlumat reyestrinin müvafiq bölümünə daxil edilməli və «ÇIXARIŞ» sənədində qeyd edilən rəsmi məlumatlara diqqət yetirilməlidir. «ÇIXARIŞ» sənədinə əsasən xidməti yoxlamalara dair məlumatlarla yoxlayıcıların təqdim etdiyi sənədlər arasında uyğunsuzluq aşkar olunarsa, sahibkarlıq subyekt(lər)inə hüquq mühafizə orqanlarına məlumat vermək tövsiyə olunur.

AEM vətəndaşlara bir daha xatırladır ki, özəl tibb müəssisələrində və aptek təşkilatlarında üzləşdikləri hər hansı problemlə bağlı AEM-in «bir pəncərə» sistemi, «qaynar xətt»i (012 596 05 20), aem@pharma.az elektron ünvanı və ya https:pharma.az saytının «MÜRACİƏT» bölməsi vasitəsilə quruma müraciət edə bilərlər. Bu halda araşdırılma aparılır və lazım gələrsə, plandankənar yoxlamanın keçirilməsi barədə qərar qəbul edilir.



# Azərbaycanda ilk dəfə VIII faktorun Xromogen üsulu ilə müayinəsi aparılıb

**Azərbaycanda ilk dəfə Respublika Klinik Xəstəxanasının laboratoriyasında VIII faktorun Xromogen üsulu ilə müayinəsi həyata keçirilib.**

Bu barədə AZƏRTAC-a TƏBİB-dən məlumat verilib.

Bildirilib ki, dünya miqyasında məhdud sayda ölkədə icra olunan bu müayinənin laboratoriya şəraitində işlənilməsi uğurla nəticələnib.

# İSİM tibb kollecinə maarifləndirmə materialları təqdim edib

**Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM) tərəfindən hazırlanaraq çap olunan geniş çeşiddə maarifləndirmə materialları 2 nömrəli Bakı Baza Tibb Kollecinə təhvil verilib.**

Mərkəzdən verilən məlumata görə, «Leykemiya və onun profilaktikası», «İnsulta qarşı ayıq ol!», «Böyrəklərin sağlamlığını bu gün qoru», «Ağciyərlərin xroniki obstruktiv xəstəliyi» və digər mövzularda buklet, vərəqə, stiker və digər materiallarda sağlamlığın qorunması, xəstəliklərin əsas risk amillərinin qarşısının alınması istiqamətində tövsiyələr yer alıb.

Qeyd edək ki, ümumi tirajı 30 mindən çox olan çap materiallarının 2 nömrəli Bakı Baza Tibb Kollecinə və bu kollec vasitəsilə ölkəmizin Naxçıvan da daxil olmaqla müxtəlif şəhərlərində fəaliyyət göstərən 10 tibb kollecinə paylanılması nəzərdə tutulur.

# Nailə Əhmədova: «Bakıda son 10 ildə yaşı 60 və daha yuxarı olanların sayı artıb»

**Səhiyyə Nazirliyinin Bakı Şəhər Herontoloji Mərkəzinin direktoru vəzifəsini icra edən Nailə Əhmədova bu qurumun fəaliyyət istiqamətləri, aparılan araşdırmalar, paytaxt Bakıda yaşlı insanların sayı və mərkəzdə həyata keçirilən müalicə-profilaktik tədbirləri ilə bağlı AZƏRTAC-ın suallarını cavablandırıb.**

**— Öncə istərdik ki, yeni yaradılan Bakı Şəhər Herontoloji Mərkəzinin fəaliyyət istiqamətləri barədə məlumat verəsiniz.**

— Mərkəzimiz 2020-ci ilin may ayında «Sağlamlıq sahəsi» poliklinikasının nəzdində yaradılıb. Herontologiya insanın qocalmasının bioloji, sosial, psixoloji problemlərini və qocalma ilə mübarizə yollarını öyrənən elmdir. Yaşlanma zamanı insanın orqanizmində baş verən dəyişiklikləri isə heriatriya elmi öyrənir. Bakı Şəhər Herontoloji Mərkəzi ahıl, yaşlı insanlara ixtisaslaşmış, keyfiyyətli tibbi xidmət göstərmək məqsədilə yaradılıb.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) insanların yaş üzrə bölgü təsnifatını nəzərə alsaq, 60-74 yaş arası olanlar ahıl, 75-89 yaş arası şəxslər qoca, yaşı 90-dan yuxarı insanlar isə uzunömürlü hesab edilir. Azərbaycan da hər zaman uzunömürlülər ölkəsi kimi tanınır, burada yaşlı insanlara daim qayğı göstərilir. 1962-ci ildə professor Şükür Həsənov tərəfindən «Sağlamlıq sahəsi»poliklinikası yaradılıb. 1976-ci ildə poliklinikada Heriatrik kabinet yaradılıb, orada yaşlı insanların sağlamlığına, sosial vəziyyətinə və rifahına xüsusi diqqət göstərilib. 1984-cü ildə həmin poliklinikanın nəzdində Herontoloji Mərkəz yaranıb.

Hazırda bütün dünyada, o cümlədən Azərbaycanda əhalinin yaşlanması prosesi gedir. Bunu nəzərə alaraq, Bakı Şəhər Herontoloji Mərkəzinin yaranması zərurəti ortaya çıxdı. Beləliklə, 2020-ci ildə Səhiyyə Nazirliyi ahıl insanlara, onların sağlamlıq vəziyyətinə xüsusi və ixtisaslaşmış diqqət göstərmək üçün «Sağlamlıq sahəsi»poliklinikasının nəzdində bu mərkəzi yaratdı.

**- Herontoloji Mərkəzə yalnız paytaxt sakinləri müraciət edə bilər?**

— Bizim mərkəzin fəaliyyət istiqaməti iki sahəyə ayrılıb: sağlam yaşlanmanın profilaktikası və xüsusi sağlam yaşlanma. Sağlam yaşlanmanın profilaktikası ÜST-nin tövsiyələrinə əsasən, insan doğulandan başlayır. Sağlam yaşlanmanın gedişatı isə 60 yaş və yuxarı yaşda insanlara aiddir. Hazırda Herontoloji Mərkəz olaraq, Azərbaycanın bölgələrindən də bizə müraciətlər daxil olur.

**— Sağlam yaşlanmanın profilaktikasında müayinə və müalicə üsulları nədən ibarətdir?**

— İlk növbədə, pasiyentlər mərkəzin terapevtinə yaxınlaşırlar. Terapevt şikayətləri dinlədikdən sonra ixtisaslaşmış həkimə müraciət edilir. Bəzən elə olur ki, cavan yaşlı pasiyentlərdə birincili şəkər aşkar olunur. Artıq bununla yanaşı, digər nevroloji fəsadlar da yaranır. Endokrinoloqla yanaşı, nevropatoloq da müalicə və müayinə prosesinə cəlb olunur, birgə müalicə kursu tərtib edilir. Həmişə pasiyentlərə müalicəni düzgün aparmağın vacibliyi barədə danışırıq. Elə etmək lazımdır ki, 40 yaşından şəkərli diabet xəstəsi olan adam yaşlılıq dönəminə girdikdə, heç olmasa, şəkərli diabetin fəsadları az olsun. Yəni şəkərin normada qalması üçün müalicə ilə yanaşı, xəstəliyin fəsadlarının daha gec yaranmasına çalışmaq lazımdır. Bunun üçün müalicə prosesi ilə yanaşı, insanları daha çox maarifləndiririk. Yaşlı vaxta nisbi sağlam girmək lazımdır, çünki yaşlandıqda həm müalicə çətinləşir, həm də başqa orqanlarda zədələnmə gedir. Həkimə vaxtında müraciət, düzgün müalicə insanların sağlam yaşlanmasına və ömürlərinin uzanmasına yol açır.



**— Bakı şəhəri üzrə hazırda ahıl, qoca və uzunömürlü insanların ümumi sayı nə qədərdir?**

— Dövlət Statistika Komitəsinin 2024-cü ildə hazırladığı statistik göstəricilərə əsasən, Bakı şəhəri üzrə ümumi əhalinin sayı 2 344 888 nəfərdir. Onların 404 556 nəfəri 60 və daha yuxarı yaşdadır. Faiz hesabı ilə bu göstərici Bakı əhalisinin təxminən 17 faizini təşkil edir. Müqayisə üçün bildirim ki, 2014-cü ildə yaşı 60 və daha yuxarı olanlar ümumi əhalinin təxmini 10 faizini təşkil edirdi.

**— Bu artım məhz sağlam yaşlanma hesabına baş verib?**

— Təəssüflər olsun ki, xəstəliklərin çoxuna insanlar orta yaşda tutulurlar. Bəzi xəstəliklər isə anadan olan kimi və ya uşaq yaşlarından baş verir. Bizə müraciət edən pasiyentlər heç bir patologiyası olmayan, sadəcə yaşla əlaqədar orqanizmində dəyişikliklər baş verənlərdir. Ona görə də bu yaşlanmanın nəyin hesabına baş verdiyi barədə statistik məlumatımız yoxdur. Amma sağlam yaşlanmanın yolları barədə insanlar arasında maarifləndirilmə aparılmalıdır. Biz sağlam yaşlanmanı nə üçün vacib hesab edirik? Çünki yaşlanan zaman insanda bir deyil, bir neçə xəstəlik yarana bilər. Uşaq və cavan yaşlarda insanda hər hansı xəstəlik varsa, həmin insan yaşlılıq vaxtına çatdıqda, bu xəstəliklərin fəsadları yaranır. Bu da yaşlılar arasında mobilliyin itirilməsinə, insanın başqa fərdlərdən asılı hala düşməsinə səbəb olur. Ona görə də sağlam yaşlanma fikrini və istəyini uşaq və cavan yaşlardan maarifləndirmə yolu ilə insanların şüuruna yeritməliyik. Əksər vaxt ailə və iş məsələlərinə baş qarışdığı üçün sağlamlıq məsələləri arxa planda qalır.

**— Bəs Bakıda uzunömürlülərin sayı neçə nəfərdir?**

— 2014-cü ildə Bakıda 90 və daha artıq yaşı olan 1611 nəfər var idisə, 2024-cü ildə bu göstərici 4553 olub. Diqqət edin, 10 il ərzində bu insanların sayı nəzərəçarpacaq qədər artıb. Bu artım xəstəliklərin vaxtında və düzgün müayinə edilməsi, profilaktikası və müalicəsi ilə bağlıdır. Həmçinin 2014-cü ildə Bakıda 75-89 yaş aralığında 49 308 nəfər yaşayırdısa, 2024-cü ildə bu rəqəm 64 184-ə çatıb. 60-74 yaş arası insanların sayı isə 2014-cü ildə 165 670, 2024-cü ildə 335 819 nəfər təşkil edib.

**— Uzunömürlülər arasında qadınlarla kişilərin nisbəti necədir?**

— 2024-cü ilin statistikasına əsasən, 90 və daha yuxarı yaşda olanların 2068-i kişi, 2485-i qadındır.

**— Ölkəmizdə insanların qocalma səbəbləri ilə bağlı tədqiqat aparılıbmı?**

— Mərkəzimiz Azərbaycan Milli Elmlər Akademiyasının Fiziologiya İnstitutunun Uzunömürlülər kafedrası ilə birgə uzunömürlülüyə və yaxud yaşlanmadakı problemlərə dair mütəmadi olaraq araşdırmalar həyata keçirir. Tədqiqatların nəticələri elmi jurnallarda dərc olunur. Bundan əlavə, mərkəzimiz Azərbaycan Tibb Universitetinin İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası ilə birgə araşdırmalar aparır. Bununla bərabər, mərkəzin həkimləri Türkiyədə təşkil olunan Ulusal Türk Geriyatri Çevrimçi konfranslarında və ÜST-nin keçirdiyi dinləmələrdə iştirak edir. Bu araşdırmaların, dinləmələrin sonunda əldə olunan nəticələrlə yaşlı insanlara daha yaxşı kömək göstərməyin yolları axtarılır. Qeyd edək ki, «COVID-19 infeksiyasının ölkəmizdə yaşlı əhalinin fizioloji durumuna təsiri», «COVID-19 keçirmiş herontoloji yaş qruplarında ürək avtomatiziminin funksional dəyişikliyi», «Yaşlı insanlar arasında tez-tez rast gələnən xəstəliklər və onların profilaktikası»mövzularında araşdırmalar aparılıb.

**— ÜST-nin keçirdiyi herontoloji dinləmələrdə iştirak etmisiniz. Bu təşkilatın Azərbaycanla bağlı hər hansı tövsiyəsi varmı?**

— Konkret olaraq Azərbaycanla bağlı hər hansı tövsiyə yoxdur. Ancaq təşkilat ümumi Avropa regionu üzrə tövsiyələrini bildirir. İştirakçılar dinləmələrdə əldə etdiyi yeni bilikləri gələcək araşdırmalarda istifadə edə bilirlər.

**— Mərkəzə müraciət edən yaşlı insanlarda ən çox hansı xəstəliklər müşahidə olunur?**

— Bütün dünyada olduğu kimi, ölkəmizdə də yaşlı insanlar hipertoniya, şəkərli diabet, sümük-əzələ sistemi xəstəliklərindən daha çox əziyyət çəkirlər.

**— Herontoloji Mərkəzdə pasiyentlərə xidmətin hansı xüsusiyyətləri var?**

— Ümumi heriatrik baxışın tam normal şəraitdə aparılmasını nəzərə aldıqda, biz bir pasiyentə 45 dəqiqə vaxt ayırırıq. Mərkəzimizə müraciət edən pasiyentin sosial vəziyyəti, kiminlə yaşaması, mərkəzimizə necə gəlməsi, mobilliyi ilə bağlı məsələlər araşdırılır. Yəni təkcə pasiyentin xəstəliyi ilə bağlı araşdırmalar aparılmır. Bizi xəstənin özünü necə idarə etməsi də maraqlandırır. Daha sonra ixtisaslaşmış həkimlər tərəfindən xəstəyə baxış keçirilir. Ehtiyac olarsa, kompleks heriatrik baxış aparılır. Laborator diaqnostik müayinələrdən keçdikdən və diaqnoz qoyulandan sonra ehtiyac olduğu halda, müalicə-reabilitasiya tədbirləri görülür. Dərman preparatları, fizioterapiya yolu ilə də müalicə tətbiq edilə bilər. Bizim mərkəzin müalicəvi bədən tərbiyəsi terapiyası daha üstün müalicə növü hesab edilir. Hazırda mərkəzimizdə reabilitasiya metodları üstünlük təşkil edir.

**— Gündəlik müraciət sayı nə qədərdir?**

— Hər gün 50 nəfərə yaxın şəxs mərkəzə ilk dəfə müraciət edir. Təkrar gələnlərin sayı isə 200-250 arası olur. Pasiyentlər müraciət etdikləri zaman bir neçə kurs müalicə alsalar, onlara evdə dərmanları qəbul etmə qaydası da başa salınır. Tövsiyə vərəqəsində dərmanların qəbulu qaydası açıq şəkildə yazılır. Çox vaxt tövsiyə vərəqəsinin mətbəxdə soyuducunun üzərinə yapışdırılması məsləhət görülür. Bunlar xırda məsələlər olsa da, bizim Mərkəzin əsas işlərindən hesab edilir.

**— Mərkəzin həkimləri yaşlı insanlarla necə ünsiyyət qururlar? Qadınlarla, yoxsa kişilərlə dil tapmaq daha asandır?**

— Bəzən mərkəzə yaşlı cütlüklər müraciət edirlər. Xanım müayinəyə can atsa da, bəyi müayinələrdən keçirməyə razı sala bilmirik. Belə olanda həkim və psixoloqlar həmin şəxslərlə söhbət aparırlar. Bu sahədə uzun illərin təcrübəsi olan həkimlərimiz onlarla ünsiyyət qururlar. Əksər hallarda qadınlar özlərinə daha çox diqqət yetirirlər. Eyni zamanda, həyat yoldaşlarını da düşünürlər.

**— Qadınların kişilərdən daha uzunömürlü olması ilə bağlı hər hansı tibbi araşdırma varmı?**

— Bu sual hər zaman insanları maraqlandırıb. Çünki mövzu haqda fərqli araşdırmalar aparılıb. Araşdırmalara görə, qadınlar zərərli vərdişlərdən daha uzaq olur, daha çox həkimə müraciət edir, xəstəlikləri daha tez aşkar edib, müalicə və profilaktik tədbirlər görürlər. Həmçinin sağlam qidalanmaya və fiziki aktivliyə üstünlük verirlər. Qadın orqanizmində ifraz edilən estrogenin yüksək səviyyəsi onları ürək-damar sistemi xəstəliklərinin baş verməsindən qoruyur. Kişilərdə isə testosteronun yüksək səviyyəsi onlarda daha çox aqressiv və riskli davranışa, eləcə də sağlamlıq üçün təhlükəni görməməyə səbəb olur. Kişilər həkimə daha az müraciət edirlər. Rejimsiz dərman qəbul edir, tövsiyələrə riayət etmir, pəhriz tutmaqdan qaçır, zərərli vərdişlərə meyilli olurlar.

**— Bəzi ölkələrdə yaşlı insanlar pensiyaya çıxdıqdan sonra aktiv həyat tərzi sürürlər. Ölkəmizdə isə bir çox yaşlılar vaxtlarını daha çox evdə keçirməyə üstünlük verirlər. Bu amil də, yəqin ki, sağlam yaşlanmaya təsir edir...**

— İnsanların psixoloji vəziyyətinə uyğun olaraq, onlar arasında maarifləndirmə işləri aparılmalıdır. İnsanların əksəriyyəti təqaüdə çıxdıqdan sonra evdə nəvələri ilə vaxt keçirməyə üstünlük verirlər. Bunun özü də insanın özünü lazımlı hiss etməsi üçün vacib amildir. Başqalarına kömək etmək hissi insanlara psixoloji olaraq toxluq bəxş edir. Əfsuslar olsun ki, ölkəmizdə insanlar təqaüdə çıxdıqdan sonra onların teatr və muzeylərə getməsi geniş yayılmayıb. Bakı şəhərində ahıllarla bağlı bir neçə ictimai birlik var. Həmin birliklərə daxil olan insanlar yığışaraq turlara gedir, asudə vaxtlarını səmərəli keçirirlər. Bu cür aktiv fəaliyyətləri ictimaiyyət arasında daha çox paylaşmaq lazımdır ki, digərləri də baxıb ruhlansınlar.










# «Periprostetik infeksiya: Diaqnostika, müalicə və müasir konsepsiya»



## Bakıda bu mövzuda beynəlxalq praktik təlim kursu keçirilib

**Bakıda Azərbaycan travmatoloq və ortopedləri üçün «Periprostetik infeksiya: Diaqnostika, müalicə və müasir konsepsiya» mövzusunda beynəlxalq praktik təlim kursu keçirilib.**

Kurs travmatologiya və ortopediyanın artroplastika (oynaq dəyişmə) sahəsinin ən ağır probleminə - irinli fəsadlaşmalara həsr edilib.

AZƏRTAC xəbər verir ki, beynəlxalq kursda paytaxtla yanaşı, ölkənin müxtəlif regionlarından 150 travmatoloq-ortoped və infeksionist iştirak edib.

Kursa sədrliyi ABŞ-ın artroplastika sahəsində dünyaca məşhur Diz və Bud-Çanaq Assosiasiyasının prezidenti, Tomas Jefferson Universitetinin professoru Cavad Pərvizi edib.

Tədbirdə Azərbaycan alimləri ilə bərabər, qardaş Türkiyənin artroplastika sahəsində ən qabaqcıl alimləri - professorlar İlkər Çətin (Ankara Universiteti), Bülənt Atilla (Hacettepe Universiteti), İbrahim Tuncay və Murad Bozkurd (Acıbadem Universiteti) öz bilik və təcrübələrini azərbaycanlı həkimlərlə bölüşüblər. Çıxışlar zamanı dünyada bu sahə üzrə qeydə alınan yeniliklər, onların tətbiqi yolları haqqında ətraflı məlumat verilib.

Kurs Beynəlxalq Travmatoloq-Ortoped Cərrahlar və Dayaq-Hərəkət Aparatı Tədqiqatçıları Cəmiyyətinin («AO Trauma») Avropa bölümü və bu qurumun Azərbaycan üzrə sədri, Azərbaycan Elmi Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunun Travmatologiya bölməsinin elmi rəhbəri, professor Aydın Qəhrəmanov tərəfindən təşkil edilib.

Tədbirdə çıxış edən A.Qəhrəmanov Prezident İlham Əliyevin Azərbaycan səhiyyəsinə ayırdığı diqqətin nəticəsi olaraq travmatologiya və ortopediya sahəsinin böyük inkişaf yolu keçdiyini deyib. O, kursun məqsədinin Azərbaycan travmatoloqlarının elmi-nəzəri və praktiki vərdişlərinin təkmilləşdirilməsi olduğunu diqqətə çatdırıb. Bildirilib ki, «AO Trauma» Azərbaycan cəmiyyətinin əsas məqsədi travmatoloji problemləri olan pasiyentlərin müalicəsinin keyfiyyətini artırmaq üçün travmatologiya-ortopediya sahəsində elmi və praktiki yenilikləri həkimlərə çatdırmaqdır. Bu, «AO Trauma» Cəmiyyətinin Azərbaycanda təşkil etdiyi sayca doqquzuncu beynəlxalq kursdur.

Kursun sonunda həkimlərə sertifikatlar təqdim edilib.

**Baş redaktor:**
**N.MƏCİDOVA**

**Baş redaktorun müavini:**
**S.NƏBİYEVA**

**Qəzet 1991-ci il yanvarın 5-dən nəşr olunur.**

**Təsisçi:**
**Azərbaycan Respublikası Səhiyyə Nazirliyi**

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.**
**Qeydiyyat nömrəsi: B92**

**Ünvan:**
**Həsən bəy Zərdabi küç., 96.**
**3-cü mərtəbə, 6-cı otaq**

**Tel./faks: (012) 596-06-61**

**E-mail: tibbqazeti@mail.ru**

*Müəlliflərin fikirləri qəzetin mövqeyi ilə üst-üstə düşməyə bilər.*
*Redaksiyaya gələn yazılar geri qaytarılmır, onlara rəy verilmir.*